# Azərbaycanlı yazıçı beynəlxalq mükafat aldı



Azərbaycanlı yazıçı Məmməd Oruc Rusiyanın paytaxtı Moskva şəhərində beynəlxalq tədbirdə iştirak edib. "V Beynəlxalq ədəbiyyat mükafatı-ən yaxşı tərcümə əsərlərinə görə" adlı tədbirə müxtəlif ölkələrdən şair və yazıçılar dəvətli olub. Fevralın 18-ində keçirilən tədbir Ümumrusiya Yazıçılar İttifaqının binasında baş tutub.

Yazıçımız indiyə kimi 50-dən artıq Rusiya yazıçısının əsərlərini dilimizə çevirib. Həmin əsərlər kitab halında və müxtəlif media orqanlarında dərc olunub.

Məmməd Oruc "Ədəbiyyatı birləşdirən tellər" adlı beynəlxalq mükafata layiq bilinib. Onunla bərabər Rusiya vətəndaşı azərbaycanlı Knyaz Qoçaq da həmin mükafatla qiymətləndirilib. Yazıçı aldığı mükafatla bağlı "Ədalət" qəzetinə təəssüratlarını bölüşdü. Onun fikrincə son vaxtlar rusiyalı yazıçılar Azərbaycana çox meyl edir:

"Rusiya Yazıçılar İttifaqında olmaq özü xoşdur. Burada dünyanın nəhəng yazıçıları olub. Indi burada onlar yoxdur, çoxu cavanlardır. Onlar da çalışır ki, əvvəlki ənənəni yaşatsınlar. Çoxu istəyir ki, ədəbiyyat yönümlü beynəlxalq tərcüməçilik inkişaf etsin, əlaqələr güc-




lənsin. Azərbaycanda çap olunmağa daha həvəslidirlər.. Bilmirəm, Azərbaycanda çap olunmaq onlarçün nə dərəcdə maraqlıdır. Amma Azərbaycan haqqında təssüratları indi çox yüksəkdir. Mükafat almaq məni sevindirdi. Ona görə ki, mükafatın arxasında 500 avro pul da var idi."

**Emin Piri**

Ədalət.- 2020.- 21 fevral. S. 3.